Kino və teatr xadimlərimiz

# Bənzərsiz aktyor



**O, teatr və kino tariximizdə silinməz izləri olan sənətkarlarımızdan biridir. Bu günədək səhnə, ekran ömrü verdiyi müxtəlif xarakterli, irili-xırdalı rolların hər birində bənzərsiz aktyor olduğunu təsdiq edib. Odur ki, oynadığı bütün rollar yaddaqalan olub və sənətkara tamaşaçı rəğbəti, sevgisi qazandırıb...**





Ramiz Məlikov (Məlik) 1943-cü il avqustun 4-də Bakı şəhərində dünyaya gəlib. Orta məktəbi bitirdikdən sonra, 1961-ci ildə sənədlərini Azərbaycan Dövlət Neft və Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft Akademiyası) verib. Ancaq instituta qəbul ola bilməyib. 1963-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Dram və kino aktyorluğu fakültəsinə daxil olub. Görkəmli sənətkarlardan - Rza Təhmasibdən, Tofiq Kazımovdan, Məlik Dadaşovdan dərs alıb.

Ramiz 1967-ci ildə institutu bitirib. Həmin il Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının truppasına aktyor kimi qəbul edilib. Aktyorluqla bərabər, Əkrəm Əylislinin "Yastı təpə", Leonard Frankin "Yad adam", İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" və başqa pyeslərin tamaşaya hazırlanmasında rejissor və rejissor assistenti kimi çalışıb.

Ramiz Məlik bir-birindən maraqlı rollarla teatr səhnəsinə çıxıb. "Hamlet"də Marsel, "Od gəlini"ndə Aqşin, "Almaz"da Barat, "Ulduz, yaxud Ədirnə fəthi"ndə Haris, "Mahnı dağlarda qaldı"da leytenant, "Sevgililərin cəhənnəmdə vüsalı"nda Mayis, "Yastı təpə"də Teymur, "Yad adam"da Valter, "İblis"də Arif, "Dəfn edilməmiş ölülər"də Jan, "Atabəylər"də Toğrul, "Kölgələrin oyunu"nda Antoni, "Gecə döyülən qapılar"da katib, "Kəllə"də Vilyams, "Ölüləri qəbiristanlıqda basdırın"da Qaçaq Süleyman, "Tələ"də mayor Metkaf, "Xurşidbanu Natəvan"da Mikayılov, "Yaşar"da İvanov kimi rolları ifa edib.

Ramiz Məlik Azərbaycan Dövlət Televiziyasının hazırladığı "Şərqin səhəri"ndə Bəhruz, "İnanmırsansa…"da Adil , "Kimin sualı var?"da Ədalət və başqa tamaşalarda müxtəlif xarakterli maraqlı rollar ifa edib.

Onun istedadı kinorejissorların da diqqətindən kənarda qalmayıb. Gənc yaşlarından kino çəkilişlərinə dəvət edilib. Həm də elə bir vaxtda ki, Azərbaycan kino sənəti qızıl dövrünü yaşayırdı. O illərdə ekranlaşdırılan filmlərin əksəriyyətinə bu günün tamaşaçıları da sevə-sevə baxırlar.

Ramiz Məlik onlarca filmdə çəkilib. "Bir cənub şəhərində", "Dağlarda döyüş", "Ən vacib müsahibə", "Gözlə məni", "İstintaq", "İstintaq davam edir", "İşarəni dənizdən gözləyin", "Qanun naminə", "Qara gölün cəngavərləri", "O qızı tapın", "Babək", "Bakıda küləklər əsir", "Mən ki gözəl deyildim", "Səmt küləyi", "Qatır Məmməd", "Qəm pəncərəsi", "Qəzəlxan", "Sevinc buxtası", "Nəsimi", "Son döyüş", "Şahid qız", "Şeytan göz qabağında", "Şərqin səhəri", "Təkcə adanı özünlə apara bilməzsən...", "Tütək səsi", "Yeddi oğul istərəm..." və digər filmlərdə canlandırdığı rollarla kinosevərlərin sevimli aktyoru olub.

Aktyorun istedadı və əməyi yüksək qiymətləndirilib. O, 1982-ci ildə Əməkdar artist, 1998-ci ildə isə Xalq artisti fəxri adları ilə təltif olunub, 1984-cü ildə Dövlət mükafatına, Azərbaycan Teatr Xadimləri İttifaqının təsis etdiyi "Sənətkar" medalına, 2010-cu ildə isə Cəfər Cabbarlı mükafatına layiq görülüb. 2019-cu ildə "Şöhrət" ordeni ilə təltif olunub. Prezident təqaüdçüsüdür. 2023-cü il avqustun 14-də isə 80 yaşlı sənətkar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycanda teatr sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 18 avqust.- S.7.